**1.** $\frac{m}{10}=\frac{8}{n}$ olarsa, $mn$ hasilini tapın.

A) 60 B) 50 C) 80 D) 20 E) 40

*(6 aprel 2025, DİM)*

**2.** Şəkər çuğundurundan onun kütləsinin 20%i qədər şəkər alınır. 80 ton şəkər çuğundurundan neçə ton şəkər alınar?

A) 12 t B) 16 t C) 8 t
D) 18 t E) 14 t

*(9 mart 2025, DİM)*

**3.** $\frac{7}{9}:3{,}1=x:9{,}3$ tənasübündən $x$-i tapın.

A) $\frac{1}{3}$ B) $\frac{4}{3}$ C) $\frac{2}{9}$ D) $\frac{7}{9}$ E) $\frac{7}{3}$

*(2 mart 2025, DİM)*

**4.** Həcmi 45 $m^3$ olan hovuzun 18 dəqiqə ərzində su ilə doldurulması qrafiki göstərilmişdir. Suyun axma sürətinin ən kiçik olduğu zaman aralığında hovuzun neçə faizi dolmuşdur?




*(14 aprel 2024, DİM)*

**5.** 300 ədədinin 40%-ni tapın.

A) 200 B) 180 C) 150
D) 120 E) 100

*(10 mart 2024, DİM)*

**6.** Hovuzu doldurmaq üçün istifadə edilən *A* kranından, boşaltmaq üçün isə istifadə edilən *B* kranından axan suyun miqdarının zamandan asılılıq qrafikləri verilmişdir. Hər iki kran eyni zamanda açılarsa və 8 saat açıq qalarsa, həcmi 50 $m^3$ olan boş hovuzun neçə faizi su ilə dolar?




*(10 mart 2024, DİM)*

**7.** Taxıl üyüdüldükdə çəkisinin 90%-i qədər un alınır. Nə qədər taxıl üyütmək lazımdır ki, 1260 kq un alınsın?

A) 1300 kq B) 1200 kq C) 1400 kq
D) 1000 kq E) 1500 kq

*(3 mart 2024, DİM)*

**8.** Uzunluğu 260 m olan borunu iki hissəyə böldülər. Birinci hissənin uzunluğunun 24%-i ikinci hissənin 54%-nə bərabər olarsa, ayrılan böyük hissənin uzunluğunu tapın.

A) 140 B) 200 C) 180
D) 240 E) 130

*(2 aprel 2023, DİM)*

**9.** Əhalisi 70000 olan şəhərin sakinləri bir ildən sonra 74200 oldu. Şəhərin əhalisi neçə faiz artdı ?

A) 10% B) 12% C) 6%
D) 14% E) 5%

*(12 mart 2023, DİM)*

**10.** $2x = 5y$, $3x = 7z$ olarsa, $\frac{x+z}{z-y}$ ifadəsinin qiymətini hesablayın.

*(12 mart 2023, DİM)*

**11.** Kostyum və ayaqqabının qiyməti 720 manatdır. Kostyumun qiymətinə 20%, ayaqqabının qiymətinə isə 30 % endirim edildikdən sonar ikisinin birlikdə qiyməti 564 manat oldu. Endirimdən əvvəl kostyumun qiymətini tapın.

*(12 mart 2023, DİM)*

**12.** Tərkibində A, B, C, D maddələrindən ibarət məhlul verilmişdir. Cədvəldə bu maddələrin kütlə və faizləri verilmişdir. Cədvələ əsasən məhluldakı A maddəsinin kütləsini hesablayın.

| Maddə | kütləsi | faizi |
|---|---|---|
| *A* | | |
| *B* | 40 | |
| *C* | 70 | 28% |
| *D* | | 20% |

*(5 mart 2023, DİM)*

**13.** Zavodda bütün işçilərin 35%-ni kişilər təşkil edir. Qadınlar kişilərdən 222 nəfər çox olarsa, zavodda neçə nəfər işləyir?

*(3 aprel 2022, DİM)*

**14.** 175%-i kəsrlə ifadə edin.

A) 0,175 B) 1,75 C) 17,5
D) 0,0175 E) 175

*(6 mart 2022, DİM)*

Düzgün cavablar

1C 2B 3E 4 (20) 5D 6 (64) 7A

8C 9C 10 (50) 11(600) 12(90) 13 (740)

14B